## *TARİX, ANTROPOLOGİYA VƏ SİYASİ ELMLƏR*

**UOT-94**

# 1950-1960-CI İLLƏR ARASINDA SSRİ-TÜRKİYƏ MÜNASİBƏTLƏRİNİN İNKİŞAF SƏBƏBLƏRİ

***t.ü.f.d.İsmayılov İsmayıl Akif oğu***
***Gəncə Dövlət Universiteti***
***ismayilov81@mail.ru***

**Xülasə:** *XX əsrin 50-60-cı illərində SSRİ və Türkiyə qarşı tərəflərdə olduqları üçün, onlar arasındakı münasibətlər çox məhdud olmuşdur. İkitərəfli əlaqələrin nisbi sürət qazanması isə 1960-cı illərin ikinci yarsına təsadüf etmişdir. SSRİ və Türkiyə qərar vericiləri tərəfindən bu münasibətlər qarşılıqlı şəkildə sabitləşdirilmişdir. Nəticə də siyasi baxımdan hər iki ölkə üçün səmərəsiz olan münasibətlər dinamizm və rəngarənglik qazanmışdır. Bu yaxınlaşma siyasəti Sovet İttifaqından da qarşılıq görmüşdür. 60-cı illərin ikinci yarsına gəlindiyində regionu təhdid edən Kipr məsələsində Moskva Ankara ilə əməkdaşlıq etmək nöqtəsinə belə gəlmişdir.*

*Vurğulamalıyıq ki, SSRİ və Türkiyə münasibətləri beynəlxalq arenada tarixçilərin və politoloqların hər zaman maraq dairəsində olmuşdur. Bu hal bu gündə davam etməkdədir. Odur ki, bu məqalədə də, 1950-1960-ci illər arasında SSRİ və Türkiyə münasibətlərinin əsas inkişaf səbəbləri araşdırılmışdır.*

**Açar sözlər:** SSRİ, Türkiyə, NATO, Kipr məsələsi, beynəlxalq münasibətlər, Soyuq Müharibə.
**Keywords:** USSR, Turkey, NATO, Cyprus issue, international relations, Cold War.
**Ключевые слова:** СССР, Турция, НАТО, кипрский вопрос, международные отношения, холодная война.

İkinci Dünya Müharibəsi bitdikən sonra dünya beynəlxalq sistem baxımından çox böyük dəyişikliklərin şahidi oldu. Bu zaman Avropanın böyük dövlətləri müharibədən sonra beynəlxalq siyasətdə və iqtisadiyyatda aparıcı aktor kimi mövqelərini itirdilər. Əsas aktorlar Amerika Birləşmiş Ştatları (ABŞ) və Sovet Sosialist Respublikaları İttifaqı (SSRİ) ilə əvəz olundu. Avropanın dünya siyasət səhnəsindən güc mərkəzi kimi geri çəkilməsindən sonra dünya ən azı iyirmi il ərzində ABŞ və SSRİ ətrafında “ikiqütblü” xarakter aldı. Müharibədən sonrakı bu dövr 1970-ci illərə qədər beynəlxalq münasibətlərin tarixi iki əks ideologiyaya - kapitalizm və sosializmə əsaslanmağa başladı. ABŞ-la SSRİ arasında başlayan bu mübarizə prosesi isə SSRİ və Tükiyəni ayrı düşərgədə düşmən tərəflər kimi qarşı-qarşıya gətirdi.

ABŞ 1949-cu ildə Şimali Atlantika Müqaviləsi Təşkilatını (NATO), SSRİ isə 1955-ci ildə Varşava Müqaviləsi Təşkilatını yaratdı (Dostluq, Əməkdaşlıq və Qarşılıqlı Yardım Müqaviləsi). [1, səh. 27] Bu təşkilatları ABŞ və Sovet İttifaqının Yer kürəsinə təsir göstərmək səylərinin hekayəsi kimi təsvir etmək yerinə düşərdi. Bütün bu iqtisadi, siyasi və hərbi inkişaflar beynəlxalq münasibətlər ədəbiyyatında “soyuq müharibə” və ya “ikiqütblü sistem” adlanan yeni bir dövrü başlatdı. SSRİ-nin öz qütbünü qurması və nüvə silahına sahib bir ölkə kimi Türkiyənin sərəddində yerləşməsi Türkiyənin də bu ölkəni “birinci dərəcəli hərbi və siyasi təhlükə” kimi qəbul etməsi ilə nəticələndi. [2, səh. 371] Nəticədə, SSRİ-nin Türkiyəyə qarşı düşmən münasibəti və ərazi tələbləri artdı ki, bu isə Türkiyəni Qərbə yönləndirdi.

İkinci Dünya Müharibəsindən sonra ortaya çıxan yeni dünya düzənində gündəmə gələn sovet ekspansionizmi, şübhəsiz ki, Türkiyəyə də təsir etmiyə bilməzdi. Türkiyənin İkinci Dünya Müharibəsinə girməməsi, torpaqlarını müharibəyə bağlaması və buna görə də müharibə zamanı Sovet İttifaqına yardımın getməsinə mane olması Sovet İttifaqını Türkiyəyə bu təzyiqi sövq edən səbəblər idi. [3, səh. 65] Əslində Türkiyə bu təzyiqlərlə müharibə bitdikdən sonra təkbaşına üzləşmişdi. Lakin sovet təzyiqləri və tələbləri dözülməz hala gələndə Qərbdən kömək istədi. Bu çərçivədə Vaşinqton administrasiyası ilə dialoq artırılmağa başlanıldı və ikitərəfli əlaqələr inkişaf etdirildi. Sovetlərin ekspansionist siyasətindən narahat olan Qərb dünyasının yeni lideri Amerika Birləşmiş Ştatları bu

kontekstdə Türkiyə ilə əlaqələrini gücləndirməyə başlamış və sovet ekspansionizminə qarşı Türkiyəni Avropa ölkələrinə yardım proqramlarına daxil etmişdir. [3, səh. 65]

Türkiyə, Truman Doktrinası çərçivəsində ABŞ-dan hərbi-iqtisadi yardım almağa və ölkəsini amerikalı kadrlara açmağa başlayanda açıq şəkildə SSRİ-nin əleyhinə və ABŞ-ın tərəfində olduğunu bəyan etmiş oldu. Ardınca 8 avqust 1949-cu ildə Türkiyə Avropa Şurasına qəbul edildi. 23 sentyabr 1949-cu ildə SSRİ-nin atom bombasına sahib olduğunu elan etdi. Bundan sonra bütün qərb dünyası, xüsusən də ABŞ SSRİ-nin sərhəd qonşusu olan Türkiyə və onun dövlətinə geosiyasi baxımdan daha çox əhəmiyyət verməyə başladılar. [4, səh. 26]

NATO-nun yaradılması həmin dövrün CHP hökuməti, həm də Türkiyədəki Demokrat Partiyası tərəfindən müsbət qarşılandı. CHP hökuməti 11 may 1950-ci ildə NATO – ya üzvlük müraciəti eildi. Lakin müraciət rədd cavabı aldı. [1, səh. 34] Göründüyü kimi, SSRİ təhlükəsi qarşısında İsmət İnönü NATO-ya üzv olmaq üçün müraciət etsə də, NATO rəsmiləri Türkiyənin tələbini nəzakətlə rədd edərək, çoxpartiyalı demokratik sistemə keçsələr, onları üzv kimi qəbul edə biləcəklərini bildirmişlərdi. Bunun üzərinə Türkiyə 1950-ci il seçkiləri ilə çoxpartiyalı demokratik rejimə keçdi. Bununla da, Qərb dövlətlərinin demokratiya baryeri aradan qaldırıldı. [3, səh. 65] Hadisələrin davamında isə, 1950-ci il iyulun 18-də Yalovada bir araya gələn Türkiyə hökumətinin rəsmiləri Koreyaya əsgər göndərmək qərarına gəldilər. [5, səh. 274] 4500 türk əsgəri Koreyaya göndərildi. [6, səh. 68] Əslində NATO tərəfindən Türkiyədən belə bir şey istənilməmişdi. Türkiyə höküməti bu qərarı almaqla NATO-ya girməyi hədəfləyirdi.

Bu arada onuda qeyd etməliyik ki, İkinci Dünya Müharibəsi zamanı Yaponiyanın müstəmləkəsi olan Koreya yarımadası, müharibə başa çatdıqdan sonra ABŞ və SSRİ arasında bağlanmış müqaviləyə əsasən süni şəkildə 38-ci paralelin şimalına və cənubuna bölünərək işğal olunmuşdu. Yapon qoşunlarının yerləşdiyi şimal torpaqlarını SSRİ, cənub torpaqlarını isə ABŞ ələ keçirmişdi. Beləliklə də, Koreya yarımadasının siyasi gələcəyi ilə bağlı ABŞ və SSRİ arasında aparılan danışıqlar nəticəsiz qalmışdı [8, səh. 87-88] Ona görə də, Koreyaya qəfil qoşun göndərmək qərarı Türkiyə mətbuatında antisovet əhval-ruhiyyəsinə səbəb oldu.

Qərarın qəbul edildiyi gündən mümkün SSRİ hücumlarına qarşı yeni müdafiə bloklarının yaradılmasından tutmuş ABŞ-dan daha çox silah alınmasına qədər geniş çeşiddə məqalələr dərc olundu. Moskvada da bu tipli yazılar öz əksini tapdı. Sovet mətbuatı Türkiyəni Amerika boyunduruğu altında olmaqda və müharibəyə səbəb olacaq hərəkətlər etməkdə ittiham edərək, şiddətli şəkildə tənqid etməyə başladı. [9, səh. 521] Bu səbəblə də, 1950-ci illərin əvvəllərində Türkiyənin xarici siyasətinin əsas prinsiplərini bəzi sovet tədqiqatçıları antikommunizm və antisovetizm kimi izah edir. Lakin, İkinci Dünya Müharibəsinin başlaması, Stalinin Türkiyədən torpaq tələbi və Boğazlardakı rejiminin dəyişdirilməsi tələbləri ilə iki ölkə arasındakı münasibətləri fərqli bir miqyasa yönəltdiyini söyləməliyik. Bu gərginlik sovet liderinin ölümünə qədər davam etmişdir.

1950-ci illərinin başında digər mühüm hadisə isə SSRİ-nin Türk boğazları ilə bağlı istəklərinin Sovet mətbuatında yenidən işıqlandırılması münasibətləri daha da gərginləşdirdi. [3, səh. 54]

1950-ci il avqustun 1-də Koreyaya qoşun yeritmək qərarından beş gün sonra Türkiyə ikinci dəfə NATO-ya üzvlük üçün yenidən müraciət etdi. Lakin sentyabr ayında keçirilən NATO Nazirlər Şurasında ikinci müraciət də rədd edildi. [1, səh. 34] Buna baxmayaraq dünyada inkişaf edən siyasi münasibətlər nəticəsində, 16-20 sentyabr 1951-ci ildə keçirilən NATO Nazirlər Şurasının iclasında Türkiyə və Yunanıstanın Alyansa dəvət edilməsi qərara alındı. Nəhayət, 1952-ci il fevralın 18-də Türkiyə rəsmi olaraq NATO-ya üzv oldu. [6, səh. 140]

Türkiyənin NATO-ya daxil edilməsin əsas səbəbi Türkiyənin başçılığı ilə Yaxın Şərq komandanlığının yaradılması və ABŞ-ın həyata keçirmək istədiyi siyasətin yolunun açılması idi. Bu siyasətində başında isə SSRİ-yə yaxın ölkələrdə aviabazalar yaratmaq siyasəti dururdu. SSRİ-yə yaxın olan Türkiyə bu məqsədlə istifadə olunmağa son dərəcə münasib ölkə idi. Eləcə də, 1951-ci ilin aprelində İranda Müsəddiqin hakimiyyətə gəlməsi, neftin milliləşdirilməsi, ərəb ölkələrində Anti Qərb Baas hərəkatının inkişafı, ərəb və fars dünyasının SSRİ ilə yaxınlaşması Türkiyənin Amerika və Qərbi Avropa üçün əhəmiyyətini artırmışdı. Nəticə də, Türkiyə Yaxın Şərqdəki bu "mənfi" hadisələrə müdaxilə etmək üçün baza kimi istifadə olunmağa son dərəcə uyğun idi. [1, səh. 36]

SSRİ 1951-ci il noyabrın 3-də Türkiyəyə nota göndərməklə NATO-nun hücum məqsədi daşıdığını və hələ də Hitler generallarının komandanlığı altında olan Almaniyanın da bu təşkilata qoşulmasından narahat olduğunu bildirdi. [10, səh. 462] Göründüyü kimi, Türkiyənin NATO-ya üzv olmaq fəallığı Sovet Rusiyasını əvvəldən narahat etmiş və xüsusən 1951-ci ilin payızından Türkiyənin NATO-ya üzv olmaq qərarının qarşısını almaq üçün hər cür səy göstərilmişdir. Türkiyə isə Sovet Rusiyasının təzyiqlərinə boyun əyməmiş, hətta NATO-ya üzv olmaq istəməsinin əsas səbəbinin sovetlərin Türkiyəyə yönəltdiyi təhdidlər olduğunu bəyan etməkdən belə çəkinməmişdir. [11, səh. 265]

Türkiyənində 1950-ci illərin əvvəllərindəki SSRİ-yə qarşı mövqeyini anti qiymətləndirmək olar. Bu dövrdə Türkiyə dövləti kommunizmi qəti şəkildə rədd edirdi. Bura da ABŞ-ında rolu böyük idi. Demokrat Partiyasının hakimiyyətə gəlməsi ilə Türkiyənin daxili və xarici siyasətində bir qədər dinamizm yaşanmağa başlamış və Türkiyə-Sovet münasibətləri ilə bağlı olaraq, o vaxta qədər davam edən kommunist təhdidinə qarşı ölkənin təhlükəsizliyinin necə təmin ediləcəyini araşdırmağa başlanılmışdı. Bu, Türkiyə prezidenti seçilmiş Cəlal Bayarın ən önəmli işlərindən biri olmuşdu. [9, səh. 523]

Stalinin ölümündən sonra SSRİ əvvəllər buraxdığı səhvi düzəltmək, Türkiyə ilə münasibətlərini tənzimləmək istəyirdi. Sovet lideri Stalin 5 mart 1953-cü ildə vəfat etdi. Bu səbəblə, 8 mart 1953-cü ildə Cevat Açıkalın, general-leytenant Fevzi Mengüç və qərargah polkovniki Nurettin Alpkartaldan ibarət türk heyəti 9 mart 1953-cü ildə saat 12:00-da keçiriləcək dəfn mərasimi üçün Moskvaya getmiş və dəfn mərasimində iştirak etmişlərdi. [9, səh. 537]

Stalindən sonra Georgi Maksimilianoviç Malenkov Sovet İttifaqı Kommunist Partiyasının Baş katibi və baş naziri, Kliment Efremoviç Voroşilov Sovet Şurasının sədri, Beriya, Molotov, Kaqanoviç və Bulqanin baş nazirin müavinləri seçildi. Yeni administrasiyada Stalinin tərəfdarları ilə yanaşı, əvvəllər onunla razılaşmayanlar da təyin olundu. [12, səh. 257]

Lakin, Türkiyədə "SSRİ Türkiyənin suverenliyini, müstəqilliyini və ərazi bütövlüyünü təhdid edir" kimi çıxışlar ölkə daxilində yenidən artmağa başladı. Şərhlər və iddialar daxildə kapitalist istismar münasibətlərini, xaricdə isə amerikapərəst türk xarici siyasətini qanuniləşdirmək üçün istifadə olundu. Bu iddialar üzərinə 30 may 1953-cü il tarixli notada Moskva rəsmi olaraq Ankaraya boğazlar və ərazilərlə bağlı heç bir tələbinin olmadığını bildirdi. [1, səh. 52]

Bu dövrdə Sovetlərin ilk hərəkətlərindən biri 30 may 1953-cü ildə Molotov imzalı notayla bəyanat verməklə, əvvəlki administrasiyanın Türkiyəyə verdiyi notalardakı fikirlərin onlar tərəfindən qəbul edilmədiyini əsas gətirərək üzr istəməsi oldu. [10, səh. 464] Bununla da SSRİ eyni zamanda boğazlardakı iddialarından əl çəkdiyini rəsmən elan etmiş və bu səylərlə Türkiyənin etibarını qazanmağa çalışmışdır. [13, səh. 184-185] Sovet notasını diqqətlə araşdırdıqda, sətirlər arasında, klassik Sovet Xarici Siyasət elementlərinin yenidən istifadə

edildiyini və İkinci Dünya Müharibəsindən sonra inkişaf edən hadisələrdə Türkiyənin məsuliyyətinində olduğunu söylədiklərini görürük. [9, səh. 541]

Türkiyə ABŞ-ın təklifləri ilə 1954-cü ildə Balkan Alyansına və 1955-ci ildə Bağdad Paktına daxil olmuş, ABŞ-la ikitərəfli razılaşmalarla öz ərazisində Amerika bazalarının açılmasına icazə vermişdir. [1, səh. 52]

1956-cı il fevralın 4-də Sovet İttifaqı Türkiyəyə nota göndərmişdir. "Notada amerikalıların Türkiyə üzərində göndərdiyi müşahidə balonlarından bəhs edilir. Bunun, SSRİ-nin suverenlik hüquqlarını pozduğu qeyd edilir və Sovet hökumətinin aeronaviqasiyasını təhlükə altına aldığı qeyd edilir". Türkiyə Xarici İşlər Nazirliyi bu notaya cavab olaraq "bunun, qəsdən edilmədiyini deyir". [12, səh. 262]

1956-cı il iyunun 8-də Sovet İttifaqının Türkiyədəki səfiri Boris F.Podtserob Türkiyənin xarici işlər naziri Fuat Köprülüylə görüşərək, SSRİ Nazirlər Sovetinin nümayəndəsi N.A.Bulqaninin məktubunu Adnan Menderesə çatdırdı. Məktubda tərksilahdan söhbət gedirdi və Sovet İttifaqının əsgərlərinin sayının və hərbi xərclərinin azaldılması barədə məlumat verilərək, Türkiyə tərəfindən də mehriban qonşuluq münasibətlərinə eyni addımlar atılmasını təmənni edirdi. Eləcə də, SSRİ-nin dünyada sülhün bərqərar olmasına və xalqların təhlükəsizliyinə verdiyi töhfələr vurğulanırdı. [17]

1950-ci illərin sonunda Türkiyənin Eyzenhauer doktrinasını dəstəkləyən ölkələr sırasına daxil olması Yaxın Şərqdə kommunizmin yayılmasının qarşısını almaq məqsədini güdürdü. Bu isə özlüyündə Sovet İttifaqını narazı salan amillərdən idi.

Bununla belə SSRİ-Türkiyə münasibətlərinin inkişaf etdirilməsi 1957-ci il fevral ayında Şepilovun münasibətləri yaxşılaşdırmaq istəyini ifadə etmək üçün "qardaş Türkiyə" ifadəsini işlətməsi ilə başladı. Sonra SSRİ-nin yeni təyin olunmuş səfiri N. S. Rijovun aprel ayında vəzifəyə başlaması ilə Türkiyədən parlament nümayəndə heyəti Moskvaya dəvət olundu. [16, səh. 133]

SSRİ ilə Türkiyə münasibətlərinə mənfi təsir göstərən digər bir hadisə Suriyadakı hadisələr oldu. Bu hadisələr zamanı sovet tərəfdarı çevrilişdən sonra Türkiyənin Suriya sərhəddinə qoşun toplaması Sovetlər tərəfindən mənfi qarşılandı. [10, səh. 467] Belə ki, Qərbin Suriyaya təzyiqlərini azaltmaq üçün SSRİ 1955-ci ilin noyabrında Suriya ilə ilk ticarət müqaviləsini imzalamış və 1956-cı ilin noyabrına qədər Suriya son bir ildə Şərq Blokundan 20 milyon funt sterlinq dəyərində silah almışdı. [16, səh. 87]

1957-ci il avqustun 6-da isə Suriya ilə SSRİ arasında bağlanmış əməkdaşlıq müqaviləsindən sonra ordunun başına kommunist generalın təyin edilməsi Sovetlərlə Qərb arasında gərginliyi dahada artırdı. Sovetlərin Suriyaya silah yardımı onsuzda Qərbin narahatlığına səbəb olmuşdu. Generalın təyinatı isə vəziyyəti daha da gərginləşdirmişdi. Əslində ABŞın özüdə Suriyanın qonşuları olan ölkələri silahla təmin edirdi. [18, səh. 358-363]

Türkiyə 1957-ci il noyabrın 30-da hərbi manevrlərə başlayacağını və Suriya sərhəddində qoşunlarının sayını artıracağını açıqladı. Ardından Türkiyə Suriya sərhədinə qoşun toplamağa başladı. Türkiyənin bu göndərişinə Sovet İttifaqından narazılıq reaksiya gəldi. Sovet İttifaqı hökuməti 1957-ci il sentyabrın 10-da Türkiyəyə xüsusi nota ilə xəbərdarlıq etdi. Notada bildirildi ki, "Yaxın Şərq və Orta Şərqdə müharibəyə başlamaq və Suriyaya qarşı kampaniyada iştirak etmək pis nəticələrə gətirib çıxaracaq". [18, səh. 358-363]

SSRİ 9 oktyabr 1957-ci ildə yeni bir məktub göndərdi. Məktubda qeyd edirdilər ki, "Türkiyənin hərbi vəziyyətinin pis olduğunu bilirlər, müharibə olarsa Türkiyə bir gün belə tab gətirə bilməyəcək. Türkiyəyə ABŞ-dan daha yaxındılar. Silahların partladığı zaman çox gec olacaq". [19, səh. 9] Bu danışıqlar fonunda, həll üçün lazımi şərtlər hazır olduqdan sonra

Suriyanın 16 oktyabr tarixli müraciəti ilə bu məsələ BMT-yə çıxarıldı. Lakin BMT-nin problemin həllini tapmağa belə ehtiyacı olmadan, oktyabrın 29-da Moskvada rəsmi dəvətə qatılan Xruşov "gərginliyin anlaşılmazlıqdan qaynaqlandığını və SSRİ Türkiyəyə hücum etməyəcək" deməsi ilə böhran sona çatdı. [16, səh. 91] 1957-ci ilin noyabrında heç bir problem olmadığına dair təminat verildikdən sonra Türkiyə əsgərlərini sərhəddən geri çəkdi. Suriya böhranı Türkiyə-Sovet münasibətlərində dönüş nöqtəsidir. Əvvəllər təhdidlərlə həyata keçirilən ikitərəfli münasibətlər Suriya böhranı ilə daha ciddiləşərək hər iki tərəfin mövqelərini açıq şəkildə ifadə etməsinin mümkün müharibəyə çevrilə biləcəyini belə qeyd etmək olar.

Türkiyə, 1957-ci ildə qəbul edilmiş Eyzenhauer doktrinasını qəbul etmiş və bu doktrina çərçivəsində o, 1958-ci ilin iyulunda amerikan və ingilis əsgərlərinin Livan və İordaniyaya getməsini dəstəkləmişdir. 1953-cü il İran, 1957-ci il Suriya və 1958-ci il İraq böhranlarında ABŞ-Qərbi Avropa ittifaqının siyasətini dəstəkləmiş, 1958-ci il İraq böhranında ABŞ-la birlikdə hərəkət etmişdir. Fələstin məsələsində ABŞ-Qərbi Avropa ittifaqı, 1958-ci ildə ABŞ-ın tələbi ilə Ətraf Mühit Paktına qoşulmuşdur. [1, səh. 52]

1958-ci ilin aprelində SSRİ-nin Ankaradakı səfiri Nikita Rijov baş nazir Menderes və prezident Bayarı ziyarət etmişdi. Bu səfərin raket bazaları ilə bağlı olduğu bildirilir. Sovet İttifaqının Türkiyədə ABŞ-ın quracağı raket qurğularının iki ölkənin dostluğuna uyğun gəlmədiyini dilə gətirilmişdi. [12, səh. 265]

14 iyul 1958-ci ildə İraqda baş verən çevriliş Türkiyə ilə SSRİ arasında yenidən gərginliyə səbəb oldu. İraqdakı çevrilişdən sonra Türkiyənin İraqa müdaxiləsi gündəmə gəldi. Bu səbəblə Türkiyə bir tərəfdən sərhədə əsgər yığmaqla bərabər, digər tərəfdən diplomatik təşəbbüslərə başladı. [16, səh. 131-132] Bu hadisələr qarşısında SSRİ iyulun 16-da Türkiyəyə şifahi bəyanat verdi. Türkiyənin Yaxın Şərqdə sülhün qorunması üçün səy göstərəcəyinə ümid etdiyini bildirdi. Elə həmin gün Xruşov Yuqoslaviya səfirinin qəbulunda hazırkı vəziyyəti dəyişmək üçün istənilən cəhddə Türkiyəyə hərbi yolla cavab verəcəyini bildirdi. [11, səh. 262] Sovetlər eyni sərtliyi təkcə Türkiyəyə qarşı deyil, Amerika və İngiltərəyə qarşı da göstərdi və bununla da yeni Şərq-Qərb gərginliyi yarandı.

SSRİ-nin Yaxın Şərqdə fəallaşması Türkiyəni daha çox Qərbə doğru yönləndirdi. Çünki sovetlərin Türkiyənin cənubuna enməsi Türkiyə üçün ciddi təhlükəsizlik narahatlığına səbəb olmuşdu. 1958-ci ilin sonunda ABŞ-ın Türkiyədə raket bazaları yaratmağa qərar verməsi Sovet etirazlarına və Türkiyə-Sovet münasibətlərinin yenidən gərginləşməsinə səbəb oldu. [11, səh. 263] Gərginləşmənin əsas səbəbi isə Nüvə başlıqlı silahlarının Türkiyə ərazisinə yerləşdirməsi və imzalanmış ikitərəfli hərbi müqavilə oldu. 1958-ci il dekabrın 13-də SSRİ-nin verdiyi notada Türkiyə ilə ABŞ arasında nüvə silahlarının və raketlərin yerləşdirilməsini tənzimləyən yeni hərbi müqavilənin imzalandığını, Türkiyənin NATO-nun nüvə bazası olmasının SSRİ-nin maraqlarına zidd olduğu bildirdi. [16, səh. 143] 5 oktyabr 1959-cu ildə Türkiyə ilə ABŞ arasında imzalanan müqavilə ilə yuxarıda qeyd edildiyi kimi, lazım gəldikdə SSRİ-yə qarşı istifadə edilmək üçün 15 Yupiter raketi Türkiyə torpaqlarına yerləşdirildi. [1, səh. 52]

SSRİ-nin münasibətləri yaxşılaşdırmaq təkliflərinə qulaq asmayan Türkiyə bu müqavilə ilə özünü hədəfə çevirmiş, üstəlik, iqtisadi depressiyaya düşmüşdü. Türkiyənin ABŞ siyasətini dəstəkləməsi, SSRİ-yə qarşı siyasət yürütməsi və Yaxın Şərqdə baş verən proseslərdə ABŞ-ın tərəfini tutması istər-istəməz Türkiyə-Sovet münasibətlərinə mənfi təsir göstərdi.

50-ci illərdə kommunizm və antisovetizmlə yanaşı, Türkiyədə Pantürkizm hərəkatı da güclənmişdi. Ənvər Paşanın 1920-ci illərin əvvəllərindəki cəhdləri və Almaniyanın 1941-

1943-cü illərdə SSRİ-ni işğalını davam etdirdiyi dövrdə Türkiyədə güclənən bu cərəyan SSRİ-də narahatlıq yaratmışdır. [16, səh. 114] Əslində Türkiyə yarandığı gündən SSRİ-də türk əsilli müsəlmanlara qarşı siyasət yürütməməyə daima diqqət yetirirdi. Türkiyə Xarici işlər naziri Zorlunun İraqdakı çevrilişdən sonra verdiyi açıqlamada da SSRİ-də 50 milyon müsəlmanın və onların yarsından çoxunun türk olduğunu qeyd etmişdiş Bu isə SSRİ-nin verdiyi memorandumda bu bəyanatın pislənməsi ilə yeni tendensiya gündəmə gəlmişdi. [16, səh. 115]

Sov. İKP-nin XX qurultayından sonra SSRİ-də baş verən proseslər və Türkiyədə 27 May hərəkatının nəticələr hər iki dövlətin həyata keçirdiyi xarici siyasətin ikitərəfli münasibətlərinin inkişafında əhəmiyyətli dərəcədə təsir göstərmişdir. Yaşanan gərginliyə baxmayaraq 1956-1960-cı illərin sonunda Baş nazir Menderesin Moskvaya rəsmi səfər qərarını verməsini olumlu inkişaf kimi göstərmək olar. [16, səh. 96]

1960-cı illər Soyuq Müharibənin beynəlxalq mühit baxımından yumşalmağa başladığı dövr oldu. Avropanın müəyyən xətlərlə ikiyə bölündüyü Soyuq Müharibə dövründə texnoloji inkişaflar hər iki super gücün nüvə silahına sahib olması ilə gərginlik vəziyyətini azaltdı. [14, səh. 316] Lakin, hər iki fövqəldövlətin öz bloklarına neytral üçüncü dünya ölkələrini daxil etməyə çalışması davam edirdi. Əslində Sovet İttifaqı Lenin dövründən iqtisadi yardım ad altında bu siyasəti həyata keçirilirdi. Ümumiyyətlə, Lenin qeyri-kommunist millətçi ölkələri dəstəkləməyə üstünlük verirdi. O, bu ölkələrdə milli istiqlal hərəkatlarına dəstək verməklə imperialist Qərbin yeni bazarlar əldə etməsinə mane olmaq məqsədi güdürdü. Bu siyasətin həyata keçirilməsinin ən gözəl nümunələrindən biri də Milli Mübarizə dövründə Türkiyəyə edilən iqtisadi yardımlardır. [15, səh. 472]

Buna baxmayaraq, 1960-cı illərin əvvəllərində Sovet İttifaqı ilə Türkiyə arasında imzalanmış ticarət müqavilələri böyük əhəmiyyət kəsb etsədə, elə həmin ilin may ayında iki ölkə arasında yeni böhran yaşandı. Böhranın səbəbi isə, İncirlik bazasından havaya qalxan NATO-nun silahsız müşahidə təyyarəsini sovetlər vurduqdan sonra Türkiyəni Sovet İttifaqına qarşı düşmənçilik etməkdə şərik olmaqla ittiham etdi. [1, səh. 53] Bu isə vəziyyəti yenidən gərginləşdirdi. Buna baxmayaraq 1960-cı ilin martında Türkiyə SSRİ və Polşa ilə ticarət müqaviləsi imzaladı. Müqaviləyə əsasən 1960-cı ildə SSRİ ilə 21 milyon dollar, Polşa ilə 22 milyon dollar dəyərində mal mübadiləsi aparılacaq, hər iki ölkəyə yun, pambıq, dəri, meyvə və üzüm, maşınqayırma, metal, kimya, kağız sellülozu və şüşə satılacaq və ya alınacaqdı. [12, səh. 269]

Nəhayət, 1960-cı illərdən etibarən Türkiyə çoxşaxəli xarici siyasət strategiyası kontekstində SSRİ ilə münasibətlərini yaxşılaşdırmaq üçün addımlar atdı. 1960-cı il mayın 31-də SSRİ Türkiyədə yeni hökuməti tanıdığını rəsmən bəyan edərək, onun mehriban qonşuluq münasibətlərini qoruyacağına ümid etdiyini bildirdi. SSRİ ilə Türkiyəni bir çox qarşı-qarşıya gətirən proseslər olsada, müsbət yanaşmalarda var idi. Bunlardan biri Türkiyənin Şərqi Anadoluda yaşayan rus vətəndaşlarının SSRİ-yə getməsinə icazə verməsi oldu. 19 yanvar 1962-ci ildə Sov.İKP-yə təqdim edilən hesabata görə, 23 oktyabr 1961-ci il və 15 yanvar 1962-ci il tarixləri arasında əsasən Qarsın Arpaçay rayonunda yaşayan və əkinçiliklə məşğul olan 407 rus əsilli ailə, ümumilikdə isə 2235 nəfər SSRİ-yə köçmüşdür. [16, səh. 205]

SSRİ ilə Türkiyə arasında bağlanan digər müqavilə də iki ölkə sərhədində yerləşən Arpaçay çayı üzərində birgə suvarma bəndinin tikintisi ilə bağlı idi. 1962-ci il iyunun 24-dən iyulun 4-dək İrəvanda toplanan müştərək komissiya Arpaçayda bənd tikmək barədə razılığa gəldi. Daha sonra 1963-cü il aprelin 9-25-də Ankarada aparılan danışıqlarda bəndin xüsusiyyətləri öyrənilmiş və 25 aprel 1963-cü ildə protokol imzalanmışdır. [16, səh. 206]

1962-ci il isə dünyanı Kuba Böhranı sardı. Bu böhranın Türkiyəyə təsiri ikiqat oldu. Belə ki, Türkiyənin həm SSRİ, həm də ABŞ ilə münasibətlərinə Kuba böhranı çox böyük təsir etdi. Kuba Raket Böhranı və ya Türkiyədə qəbul edildiyi kimi Yupiter Raket Böhranı ABŞ-ın Türkiyəyə, Sovet Sosialist Respublikaları İttifaqının Kubaya nüvə başlıqları yerləşdirməsi nəticəsində ortaya çıxdı. [20, səh. 177]

Yuxarıda da qeyd etdiyimiz kimi, 1959-cu il oktyabrın 28-də Türkiyə hökuməti Türkiyə torpaqlarına orta mənzilli nüvə silahı olan 15 Yupiter raketinin yerləşdirilməsi barədə ABŞ-la razılığa gəlmişdi. Türkiyə ictimaiyyətində bu raketlərin SSRİ-ni təhrik edəcəyini əsas gətirərək ona qarşı çıxanlar olsa da, hökumət və hərbi rəsmilər Yupiterin Türkiyənin hərbi gücünü artıracağına inanırdılar. Əslində, raketlər 1957-ci ildən tədricən Türkiyə torpaqlarına yerləşdirilməyə başlansa da, raketlərin atəş sistemi və döyüş başlıqlarının quraşdırılması 1962-ci ilin ortalarında tamamlana bildi. Türkiyə raketlərə "sahibi" olsa da, döyüş başlıqları ABŞ-ın nəzarəti altında olacaq və ABŞ və Türkiyənin birgə icazəsi olmadan istifadə olunmayacaqdı. [21, səh. 177]

Onuda qeyd etməliyik ki, NATO ölkələrinin əksəriyyəti Sovet təzyiqinə məruz qalmaq istəmədiyi üçün Amerika raketlərinin öz ərazilərində yerləşdirilməsini istəməmişdir. Sözügedən raketləri yalnız İngiltərə, İtaliya və Türkiyə öz ərazilərində yerləşdirməyi qəbul etmişdir. Türkiyə rəsmiləri belə bir fikirdə idilər ki, bu raketlər yerləşdirilsə, Türkiyə SSRİ təhlükəsindən qorunacaq, ölkənin strateji əhəmiyyəti artacaq və Türkiyə-Amerika münasibətləri daha da inkişaf edəcəkdir. [22, səh. 98-99]

Türkiyə sözügedən raketlərin yerləşdirilməsinə icazə versə də, təhlükəsizliyi baxımından da böyük riskə getmişdi. Əslində Türkiyədə raketlərin yerləşdirilməsi ilə SSRİ-nin Türkiyəyə qarşı reaksiyası artmağa başlamışdı. 1962-ci ilin mayında Sovet lideri Nikita Xruşşov ABŞ-ın Türkiyəyə raketlər yerləşdirməsini qətiyyətlə pisləmiş və buna cavab veriləcəyini bildirmişdi. Sovetlərin nəzərdə tutduğu "cavab" Kubada Yupiterə bənzər raketlərin yerləşdirilməsi olacaqdı. [20, səh. 179] Nəticədə isə Kuba Böhranı meydana gəlmişdi.

Ərazisində Amerika raketləri olan Türkiyə istər-istəməz bu böhranın ən mühüm aktorlarından birinə çevrildi. SSRİ açıq şəkildə bəyan edirdi ki, Kubadan öz raketlərini ancaq Türkiyədəki Yupiterlərin çıxarılması müqabilində geri çəkəcək. Böhran zamanı SSRİ-nin Kubadakı bazaların çıxarılması müqabilində Türkiyədəki Yupiterləri sökmək təklifi Türkiyədə Sovet İttifaqına qarşı inamsızlıq yaratmışdı. Türkiyəni daha çox narahat edən isə ABŞ-ın böhran boyunca tutduğu mövqedir. Türkiyənin rəyi olmadan Yupiter raketlərinin çıxarılması qərarı ABŞ-la münasibətlərə yenidən baxılmasına səbəb olmuş və SSRİ ilə yeni münasibətlərə yol açmişdır. [20, səh. 180] Məhz, ABŞ-ın Türkiyə və İtaliyada yerləşən Yupiter raketlərini geri çəkməsi müqabilində SSRİ də öz raketlərini Kubadan çıxaracaqdı. Əvvəla, bu sövdələşmə gizli saxlanılacaq və ABŞ SSRİ-nin Kubadakı bazaları müqabilində tədricən Türkiyədəki bazalarını ləğv edəcəkdi. [21, səh. 171-75]

Küba Böhranından sonra Türkiyə çoxşaxəli xarici siyasətə keçməyə başladı. O, mənsub olduğu Qərb Blokunun maraqlarını deyil, öz xarici siyasət məqsədlərini həyata keçirməyə daha çox üstünlük verdi. Ankara bu zaman Moskva ilə münasibətləri normallaşdırmış, sonra əməkdaşlığaı inkişaf etdirməyin yollarını axtarmışdır. Bu müsbət münasibətə qarşılıqda görməyə başlamışdır. Kuba böhranından sonra Xruşov 1962-ci il dekabrın 12-də SSRİ Ali Sovetinin iclasında beynəlxalq vəziyyəti və Sovet xarici siyasətini qiymətləndirərkən Türkiyə haqqında aşağıdakı müsbət fikirləri söyləmişdir: "Biz Türkiyə ilə dostluq içində yaşamaq istəyirik. Qoy Qara Dəniz bizi ayırmasın, birləşdirsin. Bu, SSRİ üçün də, Türkiyə üçün də faydalı olardı. Türkiyə hökumətinin münasibətləri yaxşılaşdırmaq istədiyi bizi sevindirir.

Ümid edirik ki, bu istəklər real addımlarla gücləndiriləcək. Bunun əsası var. Bu əsas Lenin və Atatürk zamanlarına gedib çıxır. [16, səh. 164]

Xarici siyasətdə Kuba böhranının həllindən sonra 1963-cü ildən etibarən SSRİ -Türkiyə münasibətlərində ümumi inkişafa xidmət edən rəsmi səfərlər başladı. 1963-cü ildə SSRİ ilə Türkiyə arasında rəsmi səfərlər ili oldu. SSRİ Türkiyədən parlament nümayəndə heyətini dəvət etdi. Parlament sədri Suat Hayri Ürgüplünün başçılıq etdiyi nümayəndə heyəti 29 may-14 iyun 1963-cü il tarixləri arasında SSRİ-yə səfər həyata keçirmişdir. Parlament nümayəndə heyəti Moskva ilə yanaşı Volqaqrad, Bakı və Daşkənddə olmuşdular. İyunun 12-də Fahri Korutürk qəbul geçirmiş və qəbulda Kozlov və Voroşilov da iştirak etmişdir. [23, səh. 421]

SSRİ Türkiyə münasibətlərinin inkişaf səbələrini araşdıran zaman Kipr məsələsinində qeyd etmək vacibdir. SSRİ Kipr probleminə ilk növbədə müstəmləkəçiliyə qarşı müstəqillik uğrunda mübarizə kimi baxmış və bu mübarizəni dəstəkləmişdir. Kipr məsələsi 14 dekabr 1954-cü ildə BMT-nin Baş Assambleyanın 9-cu iclasında ilk dəfə gündəliyinə gələndə SSRİ problemin həllinin ada xalqlarına aid olduğunu bəyan etmiş və öz müqəddəratını təyinetməni dəstəkləmişdir. [16, səh. 212]

1956-cı il iyunun 16-da Yunanıstan Parlamentinin sədri Konstantin Radopulas SSRİ Ali Sovetinin sədrinə məktub yollayaraq azad xalqların parlamentlərinə Kipr məsələsində ingilis-türk əməkdaşlığına qarşı birgə hərəkət etməyə çağırış etmişdir. [16, səh. 213] 16 avqust 1960-cı ildə müstəqilliyini elan edən Kipr Respublikasının NATO üzvləri tərəfindən qurulması prosesini izləyən SSRİ (Kutler, 2010) Sürix-London müqavilələrinin NATO tərəfindən Kiprlilərə tətbiq edilmiş bi imperialist siyasət olduğu iddia edilirdi. SSRİ, adada ABŞ-ın rabitə vasitələrini və Britaniya bazalarını və onun təminat hüququnu Kiprin suverenliyinin pozulması kimi qiymətləndirirdi. [24, səh. 143-144]

SSRİ ada əhalisinin ingilis müstəmləkəçiliyinə qarşı apardıqları mübarizə nəticəsində qazandıqları müstəqilliyi hərarətlə qarşıladı. O, Kipr Respublikasını tanıdı və 18 avqust 1960-cı ildə Kipr ilə diplomatik əlaqələr qurdu. SSRİ həmçinin Britaniyanın adadakı bazalarının çıxarılmasını istəyərək, Kiprin NATO-ya daxil olmasına mane olmağa, Qərb ittifaqının Yaxın Şərqdəki mühüm bazalarından birini əlindən almağa çalışırdı. [16, səh. 213-214]

Yunanlar türklərə qarşı hücumlarına Kiprin Erenköy və Mənsura bölgələrində başladılar. Buna cavab olaraq, Türkiyə 1964-cü il avqustun 8-i və 9-unda Yunanıstanın mövqelərini bombaladı. Makarios Suriya, Misir və SSRİ-dən kömək istədi. Bu səbəbdən Xuruşşov avqustun 9-da İnönüyə mesaj göndərərək Türkiyənin Kiprə hərbi hücum təşkil etməklə məsuliyyəti öz üzərinə götürdüyünü və hərbi əməliyyatın dayandırılmasını tələb etdiyini yumşaq bir şəkildə ifadə etdi. İnönü avqustun 13-də verdiyi cavabda yunanların aqressiv münasibətini vurğulayaraq SSRİ-ni vəziyyəti anlayacağına və bu istiqamətdə öz təsirindən istifadə edəcəyinə ümid etdiyini bildirdi. [11, səh. 792]

1963-cü ilin sonunda başlayan Kipr böhranına qədər SSRİ ilə Türkiyənin Kipr siyasətləri fərqli idi. SSRİ Kiprin tam müstəqilliyini və onun daxili işlərinə qarışmamasını müdafiə etdiyi halda, Türkiyə Sürix-London müqavilələrinin etibarlılığını iddia edirdi. [16, səh. 214] Beynəlxalq aləmdə yumşalma ilə formalaşan xarici siyasət prinsipləri və Şərqi Aralıq dənizində regional maraqlar təsirli ilə 1964-1979-cu illər ərzində Kipr məsələsində sözügedən razılaşmaların və onların adaya tətbiqi kimi məsələləri görən SSRİ ilə Türkiyənin fikirləri üst-üstə düşməyə başladı. [26, səh. 226]

Moskvanın Kipr problemində izlədiyi siyasət də Ankara ilə münasibətlərinin normallaşmadan əməkdaşlığa çevrilməsində rol oynadı. 1963-cü ilin dekabrın 31-də SSRİ Kipr yunan və türk xalqlarına dəstəyini bəyan etdi və bir gün sonra Türkiyəyə Kiprlə bağlı nota verdi. [16, səh. 214-215]1964-cü ildə SSRİ və Türkiyə liderləri arasında məktub

mübadiləsinin şahidi oldu. 1964-cü il fevralın 7-də Xruşov İnönüyə ilk məktubunu göndərir. Məktubunda o, NATO qoşunlarının adaya yerləşdirilməsinin faktiki işğala bərabər olacağına diqqət çəkir. [16, səh.215]

Bir çox məsələlərdə olduğu kimi, Kipr problemində də, ABŞ faktorundan asılı olaraq SSRİ – Türkiyə münasibətlərini nəzərdən keçirməliyik. Çünki ABŞ-ın Türkiyəyə embarqo qoymasından sonra Türkiyədəki Amerika bazalarının əksəriyyəti bağlanacaq ki, bu da SSRİ ilə münasibətlərin inkişafına dahada müsbət töhfə vermişdir. [14, səh. 318] Bu məsələ həm də, Türkiyə-Amerika münasibətlərinin struktur və mahiyyətinin dəyişməsinə səbəb oldu. 1964-cü ilin iyununda ABŞ prezidenti Consonun Türkiyənin baş nazirinə göndərdiyi mənasız və sərt məktub Türkiyəni 1945-ci ildən bəri münasibətləri çox soyuq olan Sovet İttifaqına yaxınlaşmağa və münasibətlərini yenidən formalaşdırmağa təşviq etdi. [11, səh. 315] Bu məktubla ABŞ xəbərdarlıq edirdi ki, “Əgər siz Kiprə müdaxilə etsəniz və Sovet İttifaqı ilə problemə düşsəniz, NATO üzvü olan ölkələr Türkiyəni müdafiə etməyə bilər”. [25, səh. 87]

Həmçinin Türkiyə 1960-ci illərin ortalarında NATO müttəfiqi Yunanıstanın SSRİ-dən daha çox təhlükəli olduğunun müəyyən etdi. Ardınca Kipr problemindən sonra Türkiyənin təhlükə tərəfinin dəyişməsini gördü. Bu vəziyyət Moskva-Ankara münasibətlərinin normallaşmadan əməkdaşlığa çevrilməsində də mühüm rol oynadı. [26, səh. 225]

Türkiyənin xarici işlər naziri Feridun Camal Erkinin 30 oktyabr - 6 noyabr 1964-cü il tarixləri arasında SSRİ-yə səfər etdi. Bu səfər tərəflərin Kipr məsələsində oxşar fikirlərə malik olduğunu göstərmək baxımından əhəmiyyətli idi. [7, səh. 411-515] Bu səfər münasibəti ilə 1964-cü il noyabrın 4-də iki ölkə arasında mədəniyyət müqaviləsi imzalandı. 10 maddədən ibarət olan və üç il müddətində qüvvədə olacaq müqavilədə universitetlərdə qarşı tərəfin dilində təhsil verən kafedraların yaradılması, alimlərin qarşılıqlı səfərlərə həvəsləndirilməsi, musiqi və digər sahələrdə sənətçi mübadiləsinin təşkili, opera, incəsənətlə bağlı sərgilərin açılmasının asanlaşdırılması, musiqi sahəsində rekordların və qrupların mübadiləsinin asanlaşdırılması və idman matçlarının asanlaşdırılması kimi məsələləri əhatə edirdi. [27, səh. 288]

Buna baxmayaraq, Kipr Rum lideri Makariosun SSRİ-ni Kipr probleminə daxil etmək səyi ilə, problemin NATO daxilindən çıxarlması Türkiyənin də reaksiyasına səbəb oldu. [14, səh. 318] Hətda SSRİ höküməti Moskva radiosunda verilişlərdə Makariosa dəstək verdi. [16, səh. 218] Böhran zamanı SSRİ həmişə Makariosu dəstəkləmə davam etdi. Çünki Kipr Respublikasının və Makariosun qoşulmama siyasəti Sovetləri məmnun edirdi. Bu isə SSRİ-yə Şərqi Aralıq dənizi strategiyası üçün vacib idi. Bu səbəbdən də hər zaman Türkiyənin Kiprə müdaxiləsinə qarşı çıxdılar. SSRİ-ni digər narahat edən məsələ Türkiyənin adaya nəzarəti qismən ələ keçirəcəyi təqdirdə Kiprin NATO bazasına çevrilməsi ehtimalı var idi. Bu səbəbdən SSRİ kənardan müdaxiləyə qarşı idi. Ona görə də təklif edirdi ki, adadakı iki icma öz aralarında müqavilə bağlamalıdır. Bu səbəblədə, 1964-cü il 8-9 avqust bombardmanı zamanı SSRİ Türkiyədən bombardmanı dərhal dayandırmağı tələb etdi. [28, səh. 522-526] Türkiyənin SSRİ-nin Kipr siyasətindən narazılığı parlamentdən kənarda da dilə gətirildi. Fahir Armaoğlu SSRİ-nin yürütdüyü siyasətlə Türkiyənin etibarını itirdiyini qeyd etdi. Macarıstanın SSRİ üçün, Kubanın ABŞ üçün önəmli olduğu kimi Kiprin də Türkiyə üçün eyni məna daşıdığı, SSRİ-nin isə bunu anlamamaqda ittiham edildiyi irəli sürüldü. [16, səh. 219]

1965-ci il SSRİ - Türkiyə münasibətləri yüksək səviyyəli səfərlərlə zəngin il oldu. 1960-1964-cü illər arasında Türkiyə-Sovet münasibətlərində görülən normallaşma prosesi 1965-ci ildən rəhbərliyi təhvil alan Suat Hayri Ürgüplü dövründə dahada genişləndirilərək, dostluğa əsaslanan sıx təmaslar, əməkdaşlıq və iqtisadi sahələrdə qurulan razılaşmalarla inkişaf

etdirilmişdir. [27, səh. 288] Belə ki, 4-13 yanvar 1965-ci il tarixlərində Sovet İttifaqı Ali Soveti Rəyasət Heyətinin sədri N. V. Podqorni və on nəfərdən ibarət nümayəndə heyəti Türkiyəyə səfər etdi. Mətbuatda geniş işıqlandırılan Podqornının səfəri Türkiyə tərəfindən çox müsbət qarşılandı. Sovet nümayəndə heyəti ilə yanaşı Türkiyənin SSRİ-dəki səfiri Hasan Esat Işık da Ankaraya gəldi. [14, səh. 321] Daha sonra 1965-ci ildə iki ölkə arasında əlaqələrin inkişafı istiqamətində atılan digər çox mühüm addım Sovet İttifaqının Xarici İşlər Naziri Andrey Andreyeviç Qromikonun 17-22 may 1965-ci il tarixlərində Türkiyəyə rəsmi səfəri olmuşdur. Bu səfər M. M. Litvinovun 1931-ci ildə Türkiyəyə səfərindən sonra Sovet İttifaqının Xarici işlər naziri səviyyəsində Türkiyəyə ilk səfəri idi. [30, səh. 7-8] Səfərdən sonra SSRİ Xarici işlər naziri yanvarın 21-də "İzvestiya" qəzetinə verdiyi açıqlamada SSRİ-nin enosisin əleyhinə olduğunu və federal sistemin Kipr üçün həll yolu ola biləcəyini bildirdi. Təbii ki, SSRİ-nin bu yanaşması Yunanıstanda və Kiprin yunan hissəsində narazılıq yaratdı. Daha sonra Türkiyə Xarici işlər naziri Erkinin səfərinə cavab olaraq Sovet Xarici işlər naziri Qromiko 1965-ci il mayın 17-22-də Ankaraya səfər etdi. Bu da, SSRİ-nin Türkiyə ilə yaxınlaşmağa meylini artırırdı.[28, səh. 522-526] Nəticə də, Türkiyə 1960-cı illərin ortasında siyasi olaraq Qərb düşərgəsində qalsada, yaşadığı böhranlar nəticəsində siyasi problem sahələrini bir kənara qoyaraq, SSRİ ilə qarşılıqlı ticari və iqtisadi əlaqələri inkişaf etdirməyə diqqət yetirmişdir. Məhz buna görə də 1965-ci ildən Türkiyə ilə Sovet İttifaqının münasibətlərində, xüsusən də iqtisadi sahədə qəfil sıçrayış baş vermişdi. [11, səh. 315].

SSRİ Xarici işlər naziri Qromikonun Sovet İttifaqına rəsmi səfər etmək təklifini qəbul edən Baş nazir Ürgüplü, həyat yoldaşı Nigar Ürgüplü, oğlu Hayri Suat, dövlət rəsmiləri və jurnalistlər də daxil olmaqla 15 nəfərlik heyətlə 9-16 avqust 1965-ci tarixlərində SSRİ-yə səfər etdi. [27, səh. 292]Lakin Moskva səfəri ilə bağlı Türkiyənin ictimai-siyasi dairələrində müxtəlif müzakirələr aparılıdı. SSRİ ilə qurulmağa çalışılan əlaqələrin fayda verməyəcəyi və yaradacağı təhlükələrə diqqət çəkən mətbuat səfərin ləğv edilməsini istəmişdir. Səfərin əleyhinə olanlarla yanaşı, Sovet Rusiyası ilə qurulacaq əməkdaşlığa dəstək verməklə onun iqtisadi və siyasi fayda verəcəyini vurğulayan xarici siyasət mütəxəssisləridə səfəri müstəqil xarici siyasətin məhsulu kimi qiymətləndirmişdilər. [29, səh. 161-162]

Səfər zamanı Türkiyə Cümhuriyyəti ilə SSRİ arasında bir həftəlik danışıqlardan sonra Ankarada və Moskvada dərc olunmuş birgə bəyanatda Kipr probleminə geniş yer verildi. Sovet – Türkiyə münasibətlərinin qarşılıqlı anlaşma və səmimiyyət şəraitində daha da inkişaf etdirilməsi diqqət mərkəzində olduğu qeyd edildi. Fikir mübadiləsindən sonra belə qənaətə gəlindi ki, daxili işlərə qarışmadan tam bərabərlik prinsipləri çərçivəsində əməkdaşlıq beynəlxalq gərginliyin azaldılmasına və davamlı sülhün təmin olunmasına kömək edəcək. [27, səh. 295]

1965-ci ilin oktyabrında keçirilən parlament seçkilərindən sonra Ədalət Partiyasının sədri Süleyman Dəmirəl təkpartiyalı hökumət quraraq baş nazir oldu. Dəmirəl hökuməti SSRİ ilə mehriban qonşuluq və iqtisadi münasibətlər əsasında yaranmış əlaqələrin dahada inkişaf etdirilməsinə üstünlük versə də, daxili siyasətdə antikommunist ritorikasını davam etdirmişdi. O, SSRİ ilə hərbi və siyasi əlaqələri inkişaf etdirməyi qarşısına məqsəd qoyan Dəmirəl dünya ilə çoxşaxəli xarici siyasət strategiyasının davam etdirilməsinin tərəfdarı olmuşdur. [14, səh. 323]

İqtisadi tənəzzül dövründə ABŞ-dan ehtiyac duyduğu maliyyə dəstəyi ala bilməyən Türkiyə iqtisadi inkişaf təmin etmək üçün SSRİ-dən kreditlər alamağa ehtiyac duydu. Ona görə də, baş nazir Hayri Suat Ürgüplüdə 1965-ci ildə SSRİ-yə səfər etdi. [31, səh. 228]

1967-ci il martın 25-də Ankara ilə Moskva arasında iqtisadi və texniki əməkdaşlıq haqqında müqavilə imzalandı. Bu müqavilə SSRİ-nin maliyyə və texniki dəstəyi ilə

Türkiyədə bəzi iri müəssisələrin açılmasını, sənaye avadanlıqlarının verilməsini, texniki xidmət və ödəniş şərtlərini nəzərdə tuturdu. SSRİ ilə Türkiyə arasında iqtisadi əməkdaşlıq haqqında 25 mart 1967-ci il tarixli müqavilə 12 bənd və əlavədən ibarət idi. Müqaviləyə əsasən SSRİ Türkiyədə iri sənaye layihələrinin həyata keçirilməsi üçün avadanlıq, texniki dəstək və maliyyə yardımı göstərirdi. [32, səh. 130]

Bu çərçivədə 1960-cı ildən bəri bir SSRİ firması Sümerbankın Beykoz Ayaqqabı və Dəri məmulatları fabrikinin genişləndirilməsini həyata keçirir. Digər tərəfdən, Qərb blokundan alınan kredit və borcların qeyri-kafi olması Türkiyəni 1967-ci ildən başlayaraq SSRİ-dən kredit yardımı almağa vadar etdi. Bu isə onu göstərir ki, Türkiyə Soyuq Müharibə dövründə hər iki supergücdən yardım alan nadir dövlətlərdən biri idi. [14, səh. 320]

1967-ci ilin aprelində Kipr yunanlarının Sovet Rusiyasından silah almağa başlaması xəbərləri artmağa başladı. Ankaradakı sovet rəsmisi isə bunların sadəcə şayiələr olduğunu vurğuladı və təkzib etdi ki, TASS xəbər agentliyinin xəbərində "Onlar Sovet İttifaqının Kiprdəki son inkişaflarından, eləcə də Kiprdəki son hadisələrdən narahatdırlar. [33, səh. 796]

Bu dövrdə Sovet İttifaqı ilə Türkiyənin yaxınlaşması Türkiyənin Qərb müttəfiqlərindən ayrılması demək deyildi. 1967-ci ilin aprelində Türkiyə prezidenti Cövdət Sunay ABŞ-a səfər etmiş və prezident L. Consonla görüşmüşdür. Hətda Türkiyə Prezident Cevdet Sunay, Vaşinqton Milli Mətbuat Mərkəzindəki çıxışında qeyd etmişdir ki, "Sovet İttifaqı Türkiyənin qonşusudur. Sovetlərlə yaxşı münasibətlər bizim maraqlarımızla üst-üstə düşür. Biz SSRİ ilə münasibətlərimizi yaxşılaşdırmışıq və gələcəkdə də yaxşılaşdıracağıq". [34, səh. 466]

Daha sonra Sovet baş naziri Aleksey Kosıginin Ankaraya və 1967-ci ildə baş nazir Süleyman Dəmirəl çoxlu nümayəndə heyəti ilə SSRİ-yə səfər etdilər. Dəmirəl Moskva ilə yanaşı, Bakı və Daşkənd kimi SSRİ-nin türk şəhərlərinədə səfər etdi. [31, səh. 228]

19-29 sentyabr 1967-ci ildə Türkiyənin baş naziri Süleyman Dəmirəl Sovet İttifaqına səfəri sovetlər üçün böyük əhəmiyyət kəsb edirdi. Səfər zamanı Dəmirəlin Podqornı ilə görüşü protokol qaydalarından kənara çıxaraq qeyri-adi vəziyyət almışdır. Görüş 1 saat 15 dəqiqə davam etmiş, danışıqlar xoşməramlı və dostluq danışıqları çərçivəsində aparılmışdır. [34, səh. 467] Danışıqların sonunda 1967-ci il sentyabrın 29-da birgə bəyanat dərc olunmuşdu. Bu bəyannamədə SSRİ-Türkiyə münasibətlərinin inkişafından məmnunluq ifadə olunmuşdur. Sovet İttifaqı ilə Türkiyə arasında əsas mənafelərə toxunacaq heç bir məsələnin olmadığı vurğulanmış və Kipr məsələsində Kipr məsələsinin sülh yolu ilə həll edilməsinin vacibliyi vurğulanmışdı. [33, səh. 798]

SSRİ - Türkiyə münasibətlərində yüksək səviyyəli danışıqlar 1967-ci ildə SSRİ-nin rəsmi dəvəti ilə baş nazir Süleyman Dəmirəlin SSRİ-yə səfəri ilə inkişaf etsədə, kommunizm əlehinə reaksiyasını azaltmadı. Lakin Dəmirəlin SSRİ səfərindən qayıtdıqdan sonra verdiyi açıqlama onun xarici siyasətdə daha balanslı davranacağına işarə etməsi baxımından əhəmiyyətli idi. O, qeyd edirdi ki, "Türkiyənin xarici siyasəti ipoteka deyil. Türkiyənin xarici siyasətini kimsənin ipoteka etməsindən də söhbət gedə bilməz... Bu gün görürük ki, uzun illər Türkiyə-Sovet münasibətlərinə kölgə salınıb. Təhlükəsizlik, tərəddüdlər və qərəzlər aradan qalxmaq üzrədir. Ölkələrimiz arasında ticarət mübadiləri getdikcə artan tempə daxil olub. Digər ölkələrlə əlaqələrimizdə olduğu kimi, SSRİ ilə də iqtisadi əlaqələri siyasi əlaqələrlə qarışdırmaq olmaz".

Süleyman Dəmirəlin SSRİ-yə səfəri ilə bağlı Sovet-Türkiyə kommünikesinə əsasən, ikitərəfli münasibətlər iqtisadi əməkdaşlıq əsasında müsbət inkişaf edirdi. Siyasi fikir ayrılıqlarına açıqlıq gətirilərək, Sovet-Türkiyə sərhədinin yenidən demarkasiyasına dair protokolla tənzimləndi. Nüvə silahının yayılmaması haqqında müqavilənin bağlanması,

Avropada qarşılıqlı etimad və milli maraqlara hörmət əsasında ümumi təhlükəsizlik məkanının yaradılmasını nəzərdə tutrdu. [35, səh. 32]

1967-ci il oktyabrın sonunda Yunan hökuməti Trakya türk icmasına qarşı yeni təzyiqlərə başladı. 15 noyabr 1967-ci ildə terrorçu Qrivasın təşkil etdiyi Rum Milli Qvardiyasının başçılıq etdiyi Kipr Rumları türklərin kütləvi şəkildə yaşadığı Boğaziçi və Geçitkale kəndlərinə hücum etdi. 1967-ci il noyabrın 17-də Türkiyə hökuməti Yunanıstana, dost və müttəfiq qüvvələrə Kiprə desant endirmək niyyətini açıqladı. Türkiyə Qrivasın adadan çıxmasını və 1964-cü ildən Kiprdə toplanan 12 min yunan əsgərinin adadan çıxarılmasını istədi. Noyabrın 18-də Türkiyə təyyarələri adanın üzərində alçaq uçuşlar həyata keçirdi. Noyabrın 19-da “Pravda” qəzeti yazırdı ki, “Yunan diktatorlarının Amerika imperialistlərindən göstərişlər aldığı açıq-aşkar görünür.” Bu kontekstdə SSRİ-nin Türkiyə tərəfinə rəğbəti üzə çıxmışdı. [33, səh. 798]

Lakim, ABŞ isə regionda daha çox NATO-nun bölgədəki üstünlüyünü qorumağa çalışırdı. Ona görə də, regionda SSRİ-nin fəaliyyətinin qarşısının alınmasını və NATO-nun üstünlüyünün davam etdirilməsini və möhkəmlənməsini prioritet hesab edən Kipr siyasətini dəstəkləyirdi. Bununla belə, SSRİ-dən gözlənilən təhlükə azalsada Türkiyənin öz maraqlarının ön plana çıxdığı beynəlxalq bir şərait formalaşmışdı. Türkiyə Şərqi Aralıq dənizində balansın qorunmasına və beləliklə də enosisin qarşısının alınmasına əsaslanan Kipr siyasəti izləyirdi. Bu səbəblə də Ankaranın regionla bağlı prioritetləri Vaşinqtondan fərqli idi. [26, səh. 231] Sovet İttifaqına da bu siyasət məlum olduğu üçün, o çalışırdıki Kipr müstəqil və asılı olmayan bir ölkə olsun. SSRİ Kipr probleminin həllində ABŞ-ın və NATO-nun əli olmadan bir həll istəyirdi. [36, səh. 525]

Moskva və Ankaranın Kiprlə bağlı birgə mövqeyinin daha bir konkret göstəricisi Prezident Cövdət Sunayın 12-21 noyabr 1969-cu il tarixlərində SSRİ-yə rəsmi səfəri oldu. Cevdet Sunay SSRİ-yə həyat yoldaşı Atıfət Sunay və 36 nəfərlik nümayəndə heyəti ilə birlikdə getmişdir. Səfər zamanı jurnalistlərin suallarını cavablandıran Sunay, “Ümid edirəm ki, bu səfər inkişaf edən mehriban qonşuluq münasibətlərimizə faydalı olacaq” deyə qeyd etmişdır. [29, səh. 280] Rəsmi proqramdan kənar, Sunay bu səfər zamanı Sov.İKP MK-nın baş katibi Leonid Brejnevlə də görüşmüşdür. Brejnev-Sunay görüşündə Sovet İttifaqının baş naziri Kosıgin, Podqornı, xarici işlər nazirləri Qromiko və Çağlayangil, Türkiyənin Moskvadakı səfiri Fuat Bayramoğlu da iştirak etmişdilərlər. Danışıqlarda regionu və dünyanı narahat edən ümumi siyasi problemlərlə yanaşı, SSRİ-Türkiyə münasibətləri və Kipr məsələsi də danışıqların mövzusu olmuşdur. [34, səh. 467-768] Türkiyədən SSRİ-yə prezidentlər səviyyəsində ilk səfər olması ilə diqqət çəkən bu səfərdə Kiprin müstəqilliyi və iki milli icmanın mövcudluğu tərəflər arasında birgə bəyannamə ilə bir daha təsdiqlənmişdir. [37, səh. 778]

Nəticə də qeyd edə bilərik ki, 1950-ci illərin əvvəllərində Türkiyənin xarici siyasətinin əsas prinsiplərini bəzi sovet tədqiqatçıları antikommunizm və antisovetizm kimi izah edir. Lakin, İkinci Dünya Müharibəsinin başlaması, Stalinin Türkiyədən torpaq tələbi və Boğazlardakı rejiminin dəyişdirilməsi tələbləri ilə iki ölkə arasındakı münasibətləri fərqli bir miqyasa yönəltmişdir. Stalin dövründə 1945-ci il martın 19-da Türkiyəyə verilən nota iki dövlət arasında ciddi gərginliyə səbəb olmuşdur. Bu gərginlik sovet liderinin ölümünə qədər davam etmişdir.

Türkiyənin NATO-ya daxil olması və Türkiyənin başçılığı ilə Yaxın Şərq komandanlığının yaradılmasının gündəmə gəlməsi Sovet Rusiyasını daha çox narahat etmişdir. 50-ci illərin sonuna gəlindiyində isə, Türkiyənin Eyzenhauer doktrinasını

dəstəkləyən ölkələr sırasına daxil olması Yaxın Şərqdə kommunizmin yayılmasının qarşısını almaq məqsədini güdmüşdür. Bu isə özlüyündə Sovet İttifaqını narazı salan amillərdən idi.

SSRİ ilə Türkiyə münasibətlərinə mənfi təsir göstərən digər bir hadisə Suriyadakı hadisələr olmuşdur. Bu hadisələr zamanı sovet tərəfdarı çevrilişdən sonra Türkiyənin Suriya sərhəddinə qoşun toplaması Sovetlər tərəfindən mənfi qarşılandı.

1960-cı illərin əvvəllərində Sovet İttifaqı ilə Türkiyə arasında imzalanmış ticarət müqavilələri böyük əhəmiyyət kəsb etsədə, elə həmin ilin may ayında iki ölkə arasında böhran yaşandı. Böhranın səbəbi isə, İncirlik bazasından havaya qalxan NATO-nun silahsız müşahidə təyyarəsini sovetlər vurduqdan sonra Türkiyəni Sovet İttifaqına qarşı düşmənçilik etməkdə şərik olmaqla ittiham etdi.

Moskva və Ankaranın Kipr problemi ilə bağlı bu ümumi münasibətləri onların ikitərəfli münasibətlərinin normallaşmadan əməkdaşlığa çevrilməsində rol oynamışdır. Formalaşan bu xarici siyasət prinsipləri çərçivəsində və öz maraqları ilə Şərqi Aralıq dənizi görüşündə enosisə qarşı çıxılmışdır. Nəticə də, SSRİ və Türkiyə 1964-1979-cu illərdə ortaq Kipr siyasətini qəbul edərək, onun müstəqilliyini vurğulayaraq, ada da iki icmanın mövcudluğunu və onların bərabər hüquqları olduğunu qeyd etmişdilər.

***Ədəbiyyat***

1. Caner Sancaktar, Demokrat Parti Dönemi Türk diş politikası'na marksist yaklaşım. Bilge Strateji, Cilt 3, Sayı 5, Güz 2011.
2. Ertan Efegil, "Türk-Rus İlişkileri: Bölgesel İşbirliği veya Stratejik Kazanç", Ed. İdris Bal, 21.Yüzyılda Türk Dış Politikası, Ankara Global Araştırmalar Merkezi, Ankara, 2006.
3.Necmettin Yüşen, "Türkiye'nin NATO'ya Giriş Süreci". 2022.
4.Feroz Ahmad – Bedia Turgay Ahmad, Türkiye'de Çok Partili Politikanın Açıklamalı Kronolojisi, Bilgi Yayınevi, Ankara 1976.
5.Yuluğ Tekin Kurat, Elli Yıllık Cumhuriyetin Dış Politikası 1923-1973, Belleten, S.39, Türk Tarih Kurumu Yay., Ankara 1975 (Nisan).
6.Mim Kemal Öke, Unutulan Savaşın Kronolojisi Kore 1950-1953, Boğaziçi Yay., İstanbul 2003.
7.Mustafa Balcıoğlu, "Cumhuriyet Dönemi Türk Dış Politikası", Türkiye Cumhuriyeti Tarihi, C.II, Editör: Durmuş Yalçın, Atatürk Araştırma Merkezi Yayınları, Ankara 2002.
8.Yusuf Sarınay, Türkiye'nin Batı İttifakına Yönelişi ve NATO'ya Girişi, Kültür ve Turizm Bakanlığı Yayınları, Ankara, 1988.
9.Çağatay Benhür, Stalin Dönemi Türk-Rus İlişkileri (1924-1953), Doktora Tezi, Konya: Selçuk Üniversitesi. 2008.
10.Mustafa A., Türk Siyasi Tarihinde Demokrat Parti (1946-1960), Phoenix Yayınevi, Ankara, 2004.
11.Fahri A., 20. Yüzyıl Siyasi Tarihi (1914-1995). (12. Baskı). İstanbul: Alkım Yayınevi. 2000.
12.Vefa Kurban, 1950-1960 Yıllarında Türkiye ile Sovyetler Birliği arasındakı ilişkiler. Çağdaş Türkiye Tarihi Araştırmaları Dergisi. XIV/28 (2014-Bahar), ss.253-282.
13.Selma Yel, Değişen Dünya Şartlarında Karadeniz ve Boğazlar Meselesi (1923-2008), Atatürk Araştırma Merkezi, Ankara, 2009.
14.Ebru Gençalp, Türk basınında ikili ziyaretler boyutunda Türk-Sovyet ilişkileri (1965-1980) , Çağdaş Türkiye Tarihi Araştırmaları Dergisi XIV/29 (2014-Güz), ss.315-352.
15.Ahmet Suat Bilge, "Dış Yardımlar", AÜ SBF Dergisi, C.20, S.2, 1965, s.472.

16.Erel Tellal, Uluslararası ve Bölgesel Gelişmeler Çerçevesinde SSCB–Türkiye İlişkileri (1953-1964). Ankara: Mülkiyeliler Birliği Vakfı Yayınları. 2000.
17.«Послание Председателя Совета Министров СССР Н.А. Булганина премьер-министра Турецкой Республики Аднану Мендересу», Правда, 12 июня 1956 г., №: 164.
18.Вилнис – Анович СССР и Арабские Страны. Документы и материалы, 1917-1960 гг., Гост-Издво поллит. Москва, 1961.
19.Kürşat Batuhan Usta, 1953-1960 Türk-Sovyet İlişkileri ve Demokrat Parti Dönemi Komünizmle Mücadele. Bitirme projesi, Danışman: Prof. Dr. Cezmi Eraslan İstanbul, 2019.
20.Bahar İzmir, İki müttefik, bir kriz: Türk-Amerikan ilişkilerinde jüpiter füzeleri krizi. Humanitas – Uluslararası bilimler dergisi, 2017; 5(10): 177-192.
21.William Hale, Türk Dış Politikası 1774-2000, çev.Petek D., Arkeoloji ve Sanat Yayınları:İstanbul.
22.Barton J. Bernstein, The Cuban Missile Crisis: Trading the Jupiters in Turkey, Political Science Quarterly, C. 95, S. 1, İlkbahar 1980.
23.Mehmet Gönlübol, Cem Sar ve Ahmet Şükrü Esmer vd., Olaylarla Türk Dış Politikası (1919-1995), Siyasal Kitabevi, Ankara 1996.
24.Melek Fırat, 1960-1971 Arası Türk Dış Politikası ve Kıbrıs Sorunu. Ankara: Siyasal Kitabe. 1997.
25.A. Erkmen, S. Savaş yıllarında Türk Amerikan ilişkileri (1945-1990). Ankara / Turkey – 2020.
26.Burçin Canar, SSCB-Türkiye ilişkilerinde Kıbrıs Sorunu (1964-1979). Vira Verita E-Dergi: Disiplinlerarası Karşılaşmalar / Sayı 8, Kasım, 2018, s. 223-246.
27.Cevdet Kırpık, Kübra Kalkancı, “Suat Hayri Ürgüplü Hükümeti Döneminde Türk-Sovyet İlişkileri”, History Studies, 13/1, Şubat 2021, s. 285 – 300.
28.Olaylarla Türk Dış Politikası 1919-1995, (Kolekt.E., Ankara: Siyasal Kitabevi, 1996, ss. 525-526.
29.Musa Qasımlı, Türkiye-Sovyet Sosyalist Cumhuriyetleri Birliği İlişkileri 1960-1980, Atatürk Kültür, Dil Tarih Yüksek Kurumu Atatürk Araştırma Merkezi Yayınları, Ankara 2013, s.161-162.
30.Andrey Gromiko, Anılarım, Yazılama Yayınevi, İstanbul, 2008.
31.A. B. Karaçay, Türkiye-Rusya İlişkilerinin Unutulan İnsani Boyutu. E. B. Gencer Özcan içinde, Türkiye ve Rusya İlişkilerinde Değişen Dinamikler - Kuşku ile Komşuluk. İstanbul: İletişim Yayıncılık A.Ş. 2017.
32.Altan M. Süperler ve Türkiye. İstanbul: AFA Yayıncılık, 1986.
33.Fahir Armaoğlu, 20. Yüzyıl Siyasi Tarihi, (cilt 1-2:1914-1995), Alkım, İstanbul, 2004.
34.Giray Saynur Derman, Vefa Kurban, Kıbrıs sorununun Türk dış politikasına etkisi ve ABD-SSCB ile ilişkiler. Çağdaş Türkiye Tarihi Araştırmaları Dergisi XVI/33 (2016-Güz) , ss. 455-484.
35.Дж. Кайгусуз, Особенности Советско-Турецких экономических отношений в 1960-е годы. Вестник Нижегородского университета им. Н.И. Лобачевского, 2016, История - № 3, с. 29–35
36.M. Gönlübol, Ülman, H., Esmer, A. Ş., Sar, C., Sezer, D., Bilge, A. S., Sander, O., Kürkçüoğlu, Ö., Olaylarla Türk Dış Politikası (1919-1995). (9. Baskı). Ankara: Siyasal Kitabevi. 1996.
37.Erel Tellal, 1960-1980 SSCB’yle İlişkiler. Baskın Oran, içinde, Türk Dış Politikası Kurtuluş Savaşından Bugüne Olgular, Belgeler, Yorumlar (s.769-783). (2. Baskı). İstanbul: İletişim. 2001.

## ПРИЧИНЫ РАЗВИТИЯ ОТНОШЕНИЙ СССР И ТУРЦИИ В 1950-1960-Е ГГ.

***Исмаилов Исмаил Акиф оглу***

***Резюме***

Поскольку СССР и Турция в 50-х и 60-х годах 20 века находились по разные стороны, то и отношения между ними были весьма ограниченными. Относительное ускорение двусторонних отношений пришлось на вторую половину 1960-х гг. Эти отношения были взаимно стабилизированы руководителями СССР и Турции. В результате политически малоэффективные для обеих стран отношения приобрели динамизм и разнообразие. Советский Союз отвечал взаимностью на эту политику сближения. А во второй половине 1960-х годов Москва дошла до сотрудничества с Анкарой по кипрскому вопросу, угрожавшему региону.

Следует подчеркнуть, что отношения между СССР и Турцией всегда интересовали историков и политологов на международной арене. Эта ситуация продолжается и сегодня. Поэтому в данной статье были исследованы основные причины развития отношений между СССР и Турцией в период с 1950-х по 1960-е годы.

## REASONS FOR THE DEVELOPMENT OF RELATIONS BETWEEN THE USSR AND TURKEY IN THE 1950S-1960S.

***Ismail Ismailov Akif***

***Summary***

Since the USSR and Turkey were on opposite sides in the 50s and 60s during the 20th century, relations between them were very limited. The relative acceleration of bilateral relations took place in the second half of the 1960s. These relations were mutually stabilized by the leaders of the USSR and Turkey. As a result, relations that were politically ineffective for both countries acquired dynamism and diversity. The Soviet Union reciprocated this policy of rapprochement. And in the second half of the 1960s, Moscow came to cooperation with Ankara on the Cyprus issue, which threatened the region.

It should be emphasized that the relations between the USSR and Turkey have always been of interest to historians and political scientists in the international arena. This situation continues today. Therefore, this article explored the main reasons for the development of relations between the USSR and Turkey in the period from the 1950s to the 1960s.

***Rəyçi: dosent Vüsalə Veysəlova***
***Ümumi tarix kafedrasının 29 noyabr 2022-ci il tarixli iclasın 04 saylı protokolu***
***Daxil olma tarixi 02 dekabr 2022-ci il***

**UOT:94(479.24).**

## MÜASIR MƏRHƏLƏDƏ XƏZƏR DƏNİZİNİN STATUSU PROBLEMİ

***dos. Aslanova Emma Əli qızı, dos. Bağırova Sevinc Ramiz qızı***
***Gəncə Dövlət Universiteti***
***Seva.bagirova.1978@mail.ru***

**Xülasə:** *SSRİ-nin dağılması nəticəsində Xəzəryanı dövlətlərin sayı beş oldu. Xəzərin yeni geosiyasi statusu dənizin xəzəryanı ölkələr arasında bölüşdürülməsi və onun*